

# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN 2023-2030-CU İLLƏR ÜÇÜN

# İNKİŞAF STRATEGİYASI

# Mündəricat


1. Rektorun müraciəti
2. Fəaliyyət haqqında
3. Strategiya və onun konteksti
4. Missiyamız və Baxışımız
5. 2030-cu il üzrə prioritetlərimiz
6. Strateji prioritet: Təhsil
7. Strateji prioritet: Elm
8. Strateji prioritet: Tərəfdaşlıq
9. Strateji prioritet: İnfrastruktur
10. Strateji prioritet: Dünya Reytinqləri
11. Strateji prioritet: Cəmiyyətə töhfə vermək
12. Müəyyənedici strateji amillər


Özü ilə innovasiya və təkmilləşdirici
bacarıqlar gətirən elmə,
təhsilə və sağlamlığa doğru
AZƏRBAYCAN
TİBB UNİVERSİTETİ

# Rektorun müraciəti



Professor Gəray Gəraybəyli
Rektor

"...Hər üzümüzə gələn gün dünənə nisbətən daha çox öyrənmək, daha artıq biliklərə yiyələnmək və tədrisin keyfiyyətini artırmaq üçün daha cəsarətli dəyişikliklər etməkdən çəkinməmək bizi arzuladığımız gələcəyə çatdırmaq baxımından son dərəcədə əhəmiyyətlidir..."

Azərbaycan Tibb Universitetinin növbəti yeddi il üçün strateji planını sizə təqdim edirik. Bu strateji plan ali təhsil ocağımızın tibb təhsili, elmi tədqiqatlar və səhiyyə xidmətləri sahəsində davamlı tərəqqisi naminə həmin sahələrin inkişafına yönələn tədbirlər kompleksindən ibarətdir. Əsas diqqətimizi təhsil, elm, tərəfdaşlıqlar, infrastruktur və cəmiyyətə təsir üzərində cəmləyərək, biz öz missiyamızı yerinə yetirməyə və baxışımızı həyata keçirməyə çalışırıq.

Strateji plan universitetimizin növbəti yeddi il ərzində əsas məqsəd və təşəbbüslərini özündə cəmləşdirərək, ATU-nu Azərbaycanda tibb təhsili, elmi tədqiqatlar və səhiyyə xidmətləri sahəsində lider müəssisə mövqeyinə çıxarmaq məqsədi daşıyır. Tədrisin təkmilləşdirilməsi, elmi tədqiqatların keyfiyyətinin artırılması, bu işlərdə texnoloji innovasiyalardan istifadə etməklə, ictimaiyyətin də cəlb edilməsi ilə ATU səhiyyə sahəsinə əhəmiyyətli töhfələr verməklə yanaşı, ölkənin dəyişməkdə olan tələbatlarını da qarşılamağa çalışacaqdır.

Bu prosesdə əsas maraqlı qruplar sırasına keyfiyyətli tibb təhsili arzusunda olan təhsilalanlar, onlara bu təhsili verən professor-müəllim heyəti, universitetin idarə edilməsində çalışan inzibati işçi heyəti, səhiyyə təşkilatları, tədqiqat institutları, dövlət orqanları, beynəlxalq tərəfdaşlar və yerli ictimaiyyət daxildir. Məqsədimiz strateji prioritetlərimiz və tədbirlərimiz vasitəsilə onların tələbatlarını qarşılamaq və gözləntilərini doğrultmaqdır.

Növbəti 7 il ərzində hədəflərimizə çatmaq üçün Sizinlə davamlı əməkdaşlıq edə biləcəyimizə ümid bəsləyirik.

# Fəaliyyət haqqında

Azərbaycan Tibb Universiteti tibbi təhsil, tədqiqat və səhiyyə xidmətlərinin göstərilməsi ilə məşğuldur. Biz universitet və universitetdən sonrakı təhsili verir, elmi tədqiqatlar aparır, tibbi biliklərin artırılmasına öz töhfəmizi verir, habelə, ölkənin səhiyyə sahəsinin təkmilləşdirilməsi üçün müxtəlif tərəfdaşlarla əməkdaşlıq edirik.
Hal-hazırda bizim üç beynəlxalq akkreditasiyalı təhsil proqramımız mövcuddur: "Tibb", "Əczaçılıq" və "Stomatologiya". Bu proqramlar ayrı-ayrı şəxslərin və ümumilikdə ictimaiyyətin rifahına öz töhfəsini verəcək peşəkarların yetişdirilməsində son dərəcə əhəmiyyətli rol oynayır. Akkreditasiyalı təhsil proqramlarının müvəffəqiyyətinin əsasını bu proqramlarda əsas elmi, klinik bacarıqlar və tədqiqatlar sahəsinə xüsusi diqqətin verilməsi təşkil edir. Adətən, bu proqramlar əməkdaşlıq çərçivəsində məşhur xəstəxanalarda və tibb müəssisələrində tətbiq olunur, bununla da ən son texnologiyalara keçid təmin edilmiş olur.
2023-cü ildə, əcnəbi təhsilalanların qəbulunun stimullaşdırılması və onların təhsil almasının təşkili sahəsində müstəsna xidmətlərə görə Azərbaycan Tibb Universitetinə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə verilmişdir. Son beş il ərzində Azərbaycan Tibb Universiteti 86 beynəlxalq elmi konfransa ev sahibliyi etmişdir. Təhsilalanların və professor-müəllim heyətinin mobillik fəaliyyəti dörd dəfə artmışdır.
Azərbaycan Respublikası Prezidentinin 995 saylı 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası", BMT-nin "Hərtərəfli və bərabər keyfiyyətli təhsilin təmin edilməsi və hər kəsin ömür boyunca təhsil alması üçün imkanların təşviq edilməsindən ibarət 4-cü Davamlı İnkişaf Məqsədi" və "Gender bərabərliyindən ibarət 5-ci Davamlı inkişaf məqsədi" ATU-da müvəffəqiyyətlə tətbiq edilmişdir. Son beş il ərzində bakalavr, magistr təhsili və fəlsəfə doktoru elmi dərəcəsi üzrə qadın təhsilalanların, habelə, rəhbər vəzifələrdə yer alan qadınların sayında artım baş vermişdir. "Azərbaycan Respublikası Prezidentinin 30 saylı 24 aprel 2014-cü il tarixli fərmanı ilə qəbul edilmiş Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə strateji planının" və "Hər kəs üçün bütün mərhələlərdə rifahın stimullaşdırılması və sağlam həyat tərzinin təmin olunmasından ibarət 3-cü Davamlı İnkişaf Məqsədinin" təmin edilməsi üçün, tələbələrə, şəhid ailələrinə və qazilərə müxtəlif xeyriyyə tədbirləri çərçivəsində cərrahiyə, stomatologiya, müayinə sahəsində pulsuz xidmətlər göstərilmişdir. Bu da bizim sosial töfhələrimiz üzrə strateji prioritetlərimizə uyğundur.
"IAAR EUR-2022" reytinqində ATU Avrasiya tibb universitetləri arasında üçüncü yerə layiq görülmüşdür.



# Strategiya və onun konteksti

Təhsil

Elm

Tərəfdaşlıq

İnfrastruktur

Dünya Reytinqləri

Cəmiyyətə töhfə vermək







# Missiyamız və Baxışımız

## MİSSİYA

Missiyamız bütün etik normalara cavab verən, dünya standartlarına və dövrün tələbinə uyğun tibbi təhsil vermək, innovativ tədqiqatlar aparmaq, insanların rifahını yüksəltmək və Azərbaycanda səhiyyənin inkişafını təşviq etmək üçün yüksək keyfiyyətli səhiyyə xidmətləri göstərməkdir.






## BAXIŞ

Baxışımız təhsil, tədqiqat və səhiyyə sahəsində mükəmməlliyə görə tanınan və cəmiyyətin rifahına töhfə verən səriştəli səhiyyə işçiləri yetişdirdirməklə, regionda aparıcı tibb universiteti olmaqdır.

# 2030-cu il üzrə prioritetlərimiz

- Strateji prioritet: Təhsil - Tibbi təhsilin keyfiyyətinin və əhəmiyyətinin artırılması
- Strateji prioritet: Elm – Elmi tədqiqatların təkmilləşdirilməsi və innovasiyaların stimullaşdırılması
- Strateji prioritet: Tərəfdaşlıq - Strateji tərəfdaşlıq və əməkdaşlıqların qurulması
- Strateji prioritet: İnfrastruktur - Müasir infrastrukturun və texnoloji imkanların hazırlanması
- Strateji prioritet: Dünya reytinqləri – Dünya reytinglərində yer tutaraq universitetinin tanınma siyasətini həyata keçirmək
- Strateji prioritet: Cəmiyyətə töhfə vermək - Səhiyyə sahəsində təşəbbüslər vasitəsilə ictimaiyyətə əhəmiyyətli töhfə vermək

# Strateji prioritet: Təhsil

**Məqsəd:**

a. Kurrikulumun təkmilləşdirilməsi: Beynəlxalq standartlara uyğunluğunun, habelə, yeni tendensiyalara və texnologiyalara uyğun olmasının təmin edilməsi üçün kurrikulumun müntəzəm olaraq nəzərdən keçirilməsi və yenilənməsi. Tələbə yönümlü tədris prosesini, tənqidi düşüncəni və problemlərin həll edilməsi sahəsində bacarıqları təşviq edən mühitin yaradılması.

b. Professor-müəllim heyətinin inkişafı: Tədris metodologiyalarının təkmilləşdirilməsi, habelə, fasiləsiz tədris mədəniyyətinin təmin edilməsi üçün professor-müəllim heyətinə təlim və inkişaf proqramlarına yatırımların edilməsi. İşə qəbul və peşə inkişafı təşəbbüslərinin köməyi ilə beynəlxalq səviyyədə tanınmış müəllimlərin sayının artırılması.

c. Təhsilalanlara dəstək: Hərtərəfli dəstək xidmətlərinin göstərilməsi, o cümlədən, mentorluq proqramlarının həyata keçirilməsi, konsultasiya xidmətlərinin göstərilməsi, habelə, təhsilalanların uğur qazanmasının, rifahının və karyera inkişafının təşviqi məqsədilə fakültativ fəaliyyətin göstərilməsi.

**Əsas effektivlik göstəriciləri (ƏEG - KPİ):**

- Təhsilalanların sayı: Bir tədris ilini başa çatdıraraq, digər tədris ilinə kəsirsiz keçib, təhsilini davam etdirən təhsilalanların sayının faizlə müəyyən edilməsi.
- Məzun olduqdan sonra 5 il ərzində təhsilini davam etdirmək istəyən məzunların faizinə nəzarət
- Məzunların sayı (faizlə)
- Təhsilalanların məmnuniyyət dərəcəsi (anket sorğuları)
- Məzunların müvafiq səhiyyə sahəsində işə qəbul olmasının faiz göstəricisi
- Proqramların akkreditasiyası və tanınması
- Müəllimlərin inkişafı üzrə təşəbbüslər

# Strateji prioritet: Elm

Məqsəd:
a. Tədqiqat infrastrukturu: Tibb elmləri üzrə tədqiqatların təkmilləşdirilməsi üçün müasir tədqiqat cihazlarının, laboratoriyaların və texnologiyaların qurulması.
b. Əməkdaşlıqlar: Fənlərarası tədqiqatların və bilik mübadiləsinin təşviqi üçün yerli və beynəlxalq tədqiqat institutları, universitetlər və sahə tərəfdaşları ilə əməkdaşlıqların təmin edilməsi.
c. Müavinətlər və maliyyələşdirmə: İnnovativ tədqiqat layihələrinin dəstəklənməsi və elmi nailiyyətlərin təşviq edilməsi üçün müəllimlərin tədqiqat müavinətlərindən və maliyyələşdirmə imkanlarından aktiv şəkildə istifadə olunmasının təşviq edilməsi.
d. Tədqiqatların yayılması: ATU-nun tədqiqat sahəsinə etdiyi töhfələri nümayiş etdirmək və tanınma dərəcəsini artırmaq üçün konfranslarda tədqiqat nəşrlərinin, təqdimatlarının və elmi forumlarda iştirakın təşviq edilməsi.
e. "Tədqiqat universiteti" statusunun alınması: İnnovasiya mədəniyyətinin təmin edilməsi, yenilikçi elmi tədqiqatların köməyi ilə biliklərin artırılması, habelə, müstəsna bacarıqlara malik müəllimlərin, tədqiqatçıların və təhsilalanların cəlb edilməsi və əldə saxlanması yolu ilə universitetimizin tanınmış tədqiqat universitetinə çevrilməsi.

ƏEG:
- Nüfuzlu jurnallarda tədqiqat nəşrlərinin sayı (Q1-Q4)
- Nəşrin əhəmiyyət amilləri
- Müəllifin əhəmiyyət amilləri
- Maliyyələşdirilmiş tədqiqatlar və verilmiş müavinətlər
- Qeydiyyata alınmış və gəlir gətirən patentlərin sayı
- Başlanmış birgə beynəlxalq və yerli tədqiqat layihələri
- Əqli mülkiyyət portfelinin artması
- İki magistr proqramının beynəlxalq akkreditasiyası

# Strateji prioritet: Tərəfdaşlıq

**Məqsəd:**
a. Təhsilalan və müəllim mübadilə proqramları: Təhsilalan və professor-müəllim heyətinin mübadiləsinin asanlaşdırılması üçün tanınmış beynəlxalq və ölkədaxili müəssisələrlə tərəfdaşlıqların qurulması, bununla da müxtəlif səhiyyə sistemləri ilə tanışlıq imkanlarının təmin edilməsi və beynəlxalq perspektivlərin təşviqi.
b. Əcnəbi təhsilalanlar qəbulu: əcnəbi təhsilalanların cəlb edilməsi məqsədilə ATU-nun xaricdə marketinqinin həyata keçirilməsi
c. Birgə tədqiqat layihələri: Bilik mübadiləsini, elmi nailiyyətləri və mədəniyyətlərarası tədrisin stimullaşdırılması məqsədilə beynəlxalq müəssisələrlə birgə tədqiqat layihələrinin təşviqi.
d. Beynəlxalq səviyyədə tanınma: Beynəlxalq səviyyəli işçilərin cəlb olunması, beynəlxalq əməkdaşlıqların həyata keçirilməsi və maliyyələşdirmə imkanlarından istifadə edilməsi məqsədilə ATU-nun tədris proqramlarının, tədqiqat nəticələrinin və səhiyyə xidmətlərinin beynəlxalq akkreditasiyası və tanınması. Birgə ali təhsil proqramlarının və ikili diplom imkanlarının təmin edilməsi.

**ƏEG:**
- Rəsmi olaraq qurulmuş aktiv beynəlxalq əməkdaşlıqların sayı
- Təhsilalan və professor-müəllim heyətinin mübadilə proqramlarında iştirak sayı
- Beş fakültədə əcnəbi təhsilalanların sayı və dəyişən dinamikaya nəzarət
- Beynəlxalq və yerli tərəfdaşlarla birgə tədqiqat nəşrləri və layihələri
- Beynəlxalq konfrans və tədbirlərdə iştirak (özhesabına olmayan)
- Bilik və texnologiya transferi haqqında razılaşmalar
- İkili diplom sayı
- Ölkədaxili təhsilalanların mobillik sayı

# Strateji prioritet: İnfrastruktur

Məqsəd:
a. Tələbə şəhərciklərinin təkmilləşdirilməsi: Universitetin infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi, o cümlədən, tədris obyektlərinin, tədqiqat mərkəzlərinin kitabxanaların və yataqxanaların müasirləşdirmə və təkmilləşdirilməsi.
b. Resursların paylanması: ATU-nun strateji məqsədlərinə uyğun olan müasir avadanlıqlara, texnologiyalara və təhsil resurslarına investisiyalar üzrə prioritetlərin müəyyən edilməsi yolu ilə resursların daha optimal şəkildə paylanması. İnzibati proseslərin modernləşdirilməsi və verilənlərin təhlükəsizliyinin təkmilləşdirilməsi üçün informasiyanın idarə olunması üzrə etibarlı sistemin tərtib edilməsi.
c. Dayanıqlı inkişaf təcrübələri: Universitetdə ekoloji cəhətdən dayanıqlı inkişaf təcrübələrinin təşviqi. Məsələn, enerjiyə qənaət, tullantıların idarə olunması və ekologiyanın təmizlənməsi ilə bağlı təşəbbüslər.

ƏEG:

- Başa çatdırılmış infrastruktur yeniliklərinin faiz göstəricisi
- Dərs otaqlarında, laboratoriyalarda və səhiyyə obyektlərində yeni texnologiya və avadanlıqların tətbiqi
- Tətbiq edilmiş İT sisteminin və təhlükəsizlik tədbirlərinin etibarlılığı
- Təhsilalanlardan və müəllimlərdən infrastruktur və texnologiyalarla bağlı əks-əlaqə
- Rəqəmsal tədris resursları və platformaları
- Əlçatanlıq və hərtərəflilik tədbirləri

# Strateji prioritet: Dünya Reytinqləri

Məqsəd:

a. Britaniyanın Quacquarelli Symonds (QS) konsaltinq şirkəti tərəfindən dünyanın ən yaxşı universitetlərinin reytinqində (QS World University Rankings) yerin tutulması: Universitetin beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq, həmçinin universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və beynəlxalq fəaliyyətləri haqqında məlumatlandırmaq.

b. Britaniyanın Times Higher Education nəşrinə görə dünyanın ən yaxşı universitetlərinin reytinqində (THEWorld University Rankings) yerin tutulması: Universitetin beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq, həmçinin universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və beynəlxalq fəaliyyətləri haqqında məlumatlandırmaq.

c. Çinin Şanxay Jiao Tonq Universitetinə görə Dünya Universitetlərinin Akademik Reytinqində (The Academic Ranking of World Universities - ARWU) yerin tutulması: Universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və tədqiqat fəaliyyətləri üzrə beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq.

**ƏEG:**

- QS-da 2025-ci illə kimi yer tutmaq
- THE 2026-cı illə kimi yer tutmaq
- ARWU-da 2026-cı ilə kimi yer tutmaq

# Strateji prioritet: Cəmiyyətə töhfə vermək

**Məqsəd:**
a. Cəmiyyətlə əlaqənin təşviqi: İctimaiyyətin səhiyyə ehtiyaclarının aradan qaldırılması məqsədilə səhiyyə təşkilatları, QHT və dövlət orqanları ilə tərəfdaşlıqların qurulması. Tibbi xidmətlərin kifayət qədər təmin edilmədiyi ərazilərdə mobil hospitalların və tibbi müayinələrin təşkili.
b. İctimai səhiyyənin təşviqi: Profilaktik tibbi tədbirlər və müəyyən regionlarda daha çox rast gəlinən xəstəliklər haqqında məlumatlılıq dərəcəsinin artırılması üçün maarifləndirmə proqramlarının tərtib edilməsi.
c. Təhsilalanların cəlb edilməsi: Sosial məsuliyyət hissinin formalaşdırılması üçün təhsilalanların (bakalavr, magistr tələbələrinin və rezidentlərin) cəmiyyətdəki xidmət təşəbbüslərində iştirak etməsi
d. Yaşıllıq zonasının genişləndirilməsi: Tələbə şəhərciklərində yaşıllıq zonalarının, məsələn, bağların və parkların genişləndirilməsi prosesinin izlənməsi

**ƏEG:**
- Cəmiyyətin maarifləndirilməsi proqramları və iqtisadi baxımdan aktiv əhalinin payı
- İctimai səhiyyə kampaniyaları və onların sayı
- Tibbi xidmətlərlə kifayət qədər təmin olunmayan əhali qruplarına səhiyyə xidmətləri
- Yerli səhiyyə təşkilatları ilə əməkdaşlıqlar (ayrı-ayrı layihələrdə iştirakı və onlıarın sayı)
- Cəmiyyətdəki maraqlı tərəflərdən əks-əlaqə
- Yaşıllıqla örtülü tələbə şəhərciyinin faiz göstəricisinin müəyyən edilməsi

# Müəyyənedici strateji amillər

**I - Məqsəd: Azərbaycan Tibb Universitetində əməkdaşlarımızın inkişafının təmin edilməsi və onların dəstəklənməsi**

**Ölçü vasitəsi: Əməkdaşların təlimlərdən keçməsi və təkmilləşdirmə dərəcəsinin qiymətləndirilməsi**

**Məqsədin təsviri:**
Azərbaycan Tibb Universitetində "Əməkdaşlarımızın inkişafının təmin edilməsi və onların dəstəklənməsinin" məqsədi universitet daxilində əməkdaşların biliklərinin, bacarıqlarının artırılması və onların ümumi inkişafının təmin edilməsidir. Bu məqsəd peşə inkişafı imkanlarının təmin edilməsinə, dəstək mühitinin yaradılmasına, habelə, ayrı-ayrı şəxslərə tam potensiallarını ortaya qoymaq səlahiyyətlərinin verilməsinə yönəlib.

**Ölçü vasitəsinin təsviri:**
"Əməkdaşlarımızın inkişafının təmin edilməsi və onların dəstəklənməsi" məqsədinin gedişatını və effektivliyini müəyyən etmək üçün hərtərəfli əməkdaş təlimi və inkişafın qiymətləndirilməsi həyata keçirilməlidir. Bu qiymətləndirmə zamanı təlim proqramlarının göstərdiyi təsir, əməkdaşların inkişaf imkanlarından məmnuniyyət dərəcəsi, habelə, universitet tərəfindən göstərilən dəstəyin ümumi effektivliyi dəyərləndirilir.

# Müəyyənedici strateji amillər

**II - Məqsəd: Azərbaycan Tibb Universitetində maliyyə dayanıqlığımızın təmin edilməsi**

**Ölçü vasitəsi: Maliyyə göstəricilərinin analizi**

**Məqsədin təsviri:**
Azərbaycan Tibb Universitetində "Maliyyə dayanıqlığımızın təmin edilməsinin" məqsədi universitetin əməliyyatlarını, artımını və uzunmüddətli mövcudluğunu dəstəkləyən etibarlı maliyyə bünövrəsinin qurulması və qorunub saxlanmasıdır. Bu məqsəd maliyyə sabitliyinin təmin edilməsi üçün maliyyə resurslarının optimallaşdırılmasına, gəlir mənbələrinin artırılmasına və xərclərin effektiv şəkildə idarə olunmasına yönəlib.

**Ölçü vasitəsinin təsviri:**
"Maliyyə dayanıqlığımızın təmin edilməsi" məqsədinin gedişatını və effektivliyini müəyyən etmək üçün maliyyə göstəricilərinin hərtərəfli analizi həyata keçirilməlidir. Bu analiz vasitəsilə Azərbaycan Tibb Universitetinin maliyyə vəziyyəti qiymətləndirilir, maliyyə əməliyyatlarının effektivliyi dəyərləndirilir və əsas maliyyə göstəricilərinin əldə olunması prosesi izlənilir.



# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# 2023-2030

ATU Bakı

İyul 2023

amu.edu.az
info@amu.edu.az